# Mübariz general , əzmkar komandan



***Mustafa Kamal Atatürk - türk xalqının böyük marşalı, inqilabçı dövlət xadimi və Türkiyə Cümhuriyyətinin qurucusudur. 1923-cü ildə qurduğu Cümhuriyyəti vəfatına qədər ilk prezident olaraq irəliyə apardı. Atatürk Türkiyəni dünyəvi və sənayeləşmiş bir dövlətə çevirən mütərəqqi islahatlar həyata keçirdi. Onun ideoloji xətti kamalizm, dünyəvi və millətçi prinsiplər üzərində quruldu və bu gün də bir çoxları üçün ilham mənbəyidir. Hərbi və siyasi uğurları ilə Atatürk XX əsrin ən böyük liderlərindən biri kimi tarixə düşüb.***

Mustafa Kamal Atatürk tarixdə yalnız böyük bir dövlət adamı olaraq deyil, həm də güclü bir lider, mübariz bir general və əzmkar komandan kimi tanınır. Onun adı Birinci Dünya müharibəsinin ən kritik anlarından birində, Çanaqqala döyüşündəki qələbə ilə bağlı olaraq əbədiləşib. Çanaqqala cəbhəsindəki döyüşlərdə fərqləndiyinə görə polkovnik, Sina-Fələstin cəbhəsində isə İldırım Orduları generallığına layiq görülüb.

Osmanlı İmperiyasının çöküşü və müttəfiq dövlətlərin Türkiyəni bölmək məqsədilə ölkəyə göndərdiyi qüvvələrə qarşı göstərilən direniş həm də Atatürkün liderliyinin və strateji dahiliyinin təntənəsi idi. O, 1919-cu ildən başlayaraq, qürurlu bir xalqın müstəqil dövlət qurma yolunda göstərdiyi mübarizənin simvolu oldu. Türkiyə Cümhuriyyəti işğal altındakı bir ölkənin yalnız öz mübarizəsi və iradəsi ilə necə ayağa qalxa biləcəyini göstərən bir nümunədir.

Atatürk məğlubiyyətə uğramış Osmanlı dövlətinin yıxılmasından sonra, millətinə yeni bir istiqamət göstərdi və Osmanlı İmperiyasının qalıqlarını arxada qoyaraq, müasir Türkiyənin əsaslarını qoydu. Həmin vaxt, yəni 1923-cü ilin 29 oktyabrında Atatürk yeni bir tarix yazdı. Bu, Türkiyə Cümhuriyyətinin qurulması idi. Onun mübarizəsi müasir Türkiyənin qurulmasının bünövrəsini atmaqla yanaşı, dünyaya bir dövlətin yüksəlişində müstəqilliyin və birlik ruhunun nə qədər əhəmiyyətli olduğunu göstərdi.

Mustafa Kamal Atatürk yalnız Türk tarixinin deyil, həm də bütün dünyada müstəqillik və azadlıq mübarizəsinin simvolu olan bir şəxsiyyətdir. 1934-cü ildə Türkiyə Böyük Millət Məclisinin qərarı ilə ona "Atatürk" adı verilib. Türk xalqına olan dərin sevgisi və bağlılığı üçün bu ada layiq görülmüşdür. O, dörd hakimiyyəti dövründə Türkiyənin prezidenti vəzifəsini daşıyaraq ölkəsinin tarixinə ən uzunmüddətli rəhbər kimi düşmüş, həyata keçirdiyi islahatlarla Türkiyəni sürətlə inkişaf etdirib, güclü bir dövlətə çevirmişdir.

Bu gün müasir Türkiyənin hər bir addımı Atatürkün qoyduğu qayda-qanunlar və ideyalar əsasında atılır. O, yalnız bir ölkənin deyil, bir millətin ruhunu canlandırmış və gələcəyini işıqlandırmışdır. "Bu gün türklüyümüz yaşayırsa, deməli, Atatürk də yaşayır" - bu fikir Atatürkün yalnız türk xalqı üçün deyil, bütün Türk dünyası üçün əvəzsiz bir lider olduğunu göstərir.

Atatürkün ideyaları və Türk xalqının mübarizəsi, yalnız Türkiyə ilə məhdudlaşmır, bu gün türk dövlətləri arasında birliyin güclənməsinin təməlini atmışdır. Ən gözəl nümunəsi isə Türkiyə və Azərbaycan arasındakı möhkəm dostluq və qardaşlıq münasibətləridir. Atatürk "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" deyərək iki dövlətin birliyinin nə qədər dərin və əhəmiyyətli olduğunu vurğulamışdır. Heydər Əliyev isə "Biz bir millət, iki dövlətik" deyərək bu qardaşlığın mahiyyətini və əhəmiyyətini bir daha ifadə etmişdir.

Bu gün Türkiyə və Azərbaycan dünya tarixində bir-birini hər zaman ən yüksək səviyyədə dəstəkləyən iki ölkə olaraq çıxış edir. Onların qardaşlığı sarsılmaz birliyin və qarşılıqlı hörmətin ən gözəl nümunəsidir. Əgər dünyada iki ölkə arasında bu qədər sıx və möhkəm bir əlaqə varsa, o da yalnız və yalnız Atatürk və Heydər Əliyevin müəyyən etdiyi yolda irəliləyən, qardaşlıq və birliyi gücləndirən bir ideyanın nəticəsidir.

Azərbaycanda Atatürk Mərkəzinin yaradılması bu istiqamətdə görülən ən mühüm işlərdən biridir. Böyük Mustafa Kamal Atatürkün xatirəsi ölkəmizdə hər zaman ehtiramla yad olunur. Atatürk şəxsiyyətinin əzəməti sadəcə Türkiyə tarixi ilə məhdudlaşmır. Onun adı XX əsr dünya tarixinin yetişdirdiyi ən böyük siyasi, hərbi və dövlət xadimləri sırasında dayanır. Liderin fəaliyyəti tarixdə oynadığı əhəmiyyətli roluna görə bir çox yazar və tarixçi tərəfindən araşdırılıb və haqqında 379 əsər yazılıb. Mustafa Kamal yüzilliyin ən böyük hərbi və siyasi xadimlərindən biridir. Osmanlı imperiyasının xarabalıqları üzərində müasir Türkiyə Respublikasını quran Qazi Mustafa Kamal öz ağlı və cəsarəti ilə bütün dünyada yüz milyonlarla insanın dərin ehtiramını qazanmışdır. Ən məşhur siyasətçilər belə bu böyük şəxsiyyətə heyranlıqlarını gizlətməyiblər. Çörçill Atatürkün ölümünü nəinki Türkiyə xalqının, bütövlükdə Avropanın böyük itkisi adlandırmışdı. Ruzvelt isə dərin üzüntü keçirdiyini dilə gətirmişdi. BMT-nin mədəniyyət, elm və təhsil sahəsi üzrə ixtisaslaşmış təşkilatı olan UNESCO tərəfindən 1981-ci il "Atatürk ili" elan olunmuşdu. "Yurtta sülh, cihanda sülh" - deyən Mustafa Kamal Atatürkün adını daşıyan beynəlxalq sülh, barış mükafatına layiq görülənlərdən biri də ümummilli liderimiz Heydər Əliyev olmuşdur.

Uzun sürən xəstəlikdən sonra Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk 10 noyabr 1938-ci ildə İstanbulda, Dolmabaxça sarayında dünyasını dəyişdi. Onun vəfatı yalnız Türkiyə xalqı üçün deyil, bütün dünya üçün böyük bir itki idi. Atatürkün xatirəsini yaşatmaq və onun mirasını gələcək nəsillərə çatdırmaq məqsədilə Anıtqəbir adı ilə məşhur olan məzar kompleksi inşa olundu. "Anıtqəbir" türk dilində "xatirə qəbir" deməkdir. Bu məzar yalnız Atatürkün həyatının və onun apardığı mübarizənin, həm də onun ideyalarının və millətinə olan bağlılığının əbədiləşdiyi yerdir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2024.- 8 noyabr (№ 247).- S.13.